# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu

http://www.physiology.az/

İnstitutun əsasının qoyulmasının rəsmi tarixi 2 fevral 1968-ci ildir; bu tarixdə SSRİ Nazirlər Sovetinin Elm və Texnika üzrə Dövlət Komitəsinin qərarı ilə Azərbaycan SSR Elmlər Akademiyasında Fiziologiya İnstitutu yaradılmışdır. Lakin İnstitutun təşəkkül tapması öz başlanğıcını 1953-cü ildə Azərbaycanda fiziologiya məktəbinin görkəmli nümayəndələrindən biri olan akademik Abdulla Qarayevin təşəbbüsü ilə Elmlər Akademiyasının Zoologiya institutunda Fiziologiya şöbəsinin yaradılmasından götürür. Şöbənin bazasında əvvəl Akademiyanın Rəyasət Heyəti yanında sektor, sonra isə Respublikada insan və heyvan fiziologiyası sahəsində tədqiqatların aparıcı mərkəzinə çevrilmiş bugünkü Fiziologiya institutu yaradıldı. Hazırda İnstitut onun yaradıcısı və ilk direktoru olan Abdulla Qarayevin adını daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən Akdemik Abdulla Qarayev adına Fiziologiya İnstitutu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Hazırda İnstitutun baş direktoru professor Ulduz Həşimova, icraçı direktoru isə professor Əhməd Hacıyevdir.

**İnstitutun əsas elmi istiqaməti:**

1. Qocalma və uzunömürlülüyün molekulyar genetik və fizioloji əsasları. Sosial əhəmiyyətli yaş xəstəliklərinin diaqnostikası, profilaktikasına innovativ yanaşmaların işlənməsi.
2. Müxtəlif mənşəli ətraf mühit faktorlarının, çirkləndiricilərinin fizioloji effektlərinin tədqiqi. Ekoloji statusun monitorinqi üçün innovativ yanaşmaların işlənməsi.
3. Beynin inteqrativ fəaliyyətinin, neyroplastikliyin fizioloji və molekulyar əsasları. Neyrodegenerasiyanın tədqiqi və korreksiyasına yeni yanaşmaların işlənməsi.
4. Kliniki neyrofiziologiya, immunofiziologiya, eksperimental transplantologiya.

**Nəşr edilən elmi jurnallar:**

“Azerbaijan Journal of Physiology”

(print ISSN 2959-2933; online ISSN 2959-2941)
https://ajp.az/index.php/ajp

**İnstitutun tərkibində fəaliyyət göstərən müdafiə şurası:**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi **FD 1.08** olan Dissertasiya şurası fəaliyyət göstərir.

**Elm Sahəsinin adı: Biologiya elmləri**

2406.02 – Biokimya
2411.01 – İnsan və heyvan fiziologiyası

**Şöbə və laboratoriyalar:**

**1.** Bioherontoloji şöbəsi:

Qocalmanın fiziologiyası laboratoriyası.

Ontogenezin biokimyası laboratoriyası.

Görmənin və neyrodegenerativ proseslərin fiziologiyası laboratoriyası.

Bioloji fəal maddələrin farmakologiyası  laboratoriyası.

İmmunofiziologiya və eksperimental transplantologiya laboratoriyası.

**2.** Ekoloji fiziologiya şöbəsi:

Ekotoksikologiya laboratoriyası.

Radiasiya fiziologiyası laboratoriyası.

Mühit amilləri və analizatorların formalaşması laboratoriyası.

**3.** Neyrobiologiya şöbəsi:

Hüceyrənin morfofunksional plastikliyi laboratoriyası.

İnteqrativ fəaliyyətin molekulyar əsasları laboratoriyası.

Kliniki neyrofiziologiya laboratoriyası.

## STATİSTİK MƏLUMATLAR

## Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu

